# Moskvada elmi konfrans öz işinə başlayıb




Moskvada "Musiqi dünyası" beynəlxalq elmi musiqi jurnalının 25 illiyi münasibətilə "Musiqi dünyası - 2024. İnformasiya, kommunikasiya, yaradıcılıq" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb.

İki gün davam edəcək tədbirin təşkilatçıları Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Rusiya Dövlət İncəsənət Tarixi İnstitutu, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasıdır.

Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli konfransın açılışında çıxış edərək "Musiqi dünyası" jurnalının yaranma tarixindən danışıb.

Moskva Dövlət Konservatoriyasının rektoru Aleksandr Sokolov Bakı Musiqi Akademiyası ilə tarixi qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğulayıb. Rektor qeyd edib ki, iki təhsil müəssisəsi arasında elmi əməkdaşlıq da yüksək səviyyədədir.

Azərbaycan Milli Konservatoriyasının professoru, konservatoriyanın elmi işlər üzrə prorektoru Lalə Hüseynli bildirib ki, "Musiqi dünyası" jurnalı artıq 25 ildir fəaliyyət göstərir, maraqlı elmi məqalələr, resenziyalar, musiqi həyatı ilə bağlı müxtəlif məlumatları geniş oxucu kütləsinə çatdırır.

Jurnalın baş redaktoru və naşiri Tariyel Məmmədov nəşrin yaranma tarixi, fəaliyyətindən danışaraq bildirib ki, "Musiqi dünyası" həm də nəşriyyat mərkəzidir. Burada çoxjanrlı və müxtəlif istiqamətli 46 veb-sayt birləşib. Mərkəzin mütəxəssisləri hazırda dörd yüzə yaxın qədim qrammofon valının bərpası üzərində çalışırlar.

Redaktor jurnalın zəngin arxivi barədə də məlumat verib.

Qeyd edək ki, 1999-cu ildən nəşr olunan "Musiqi dünyası" jurnalı 25 il ərzində Rusiya Elmi Sitat İndeksinin reyestrinə daxil edilmiş musiqi nəşrlərinin daimi beynəlxalq tərəfdaşı olub, Rusiyada və digər xarici ölkələrdə alimlər arasında əməkdaşlıq platforması rolunu oynayıb. Jurnalın 25 illik yubileyi və 100-cü nömrəsinin çapdan çıxmasının qeyd olunması beynəlxalq əməkdaşlıq formatında nəşriyyat və informasiya siyasəti, elmi, təşkilati və rəqəmsal kommunikasiya, qeyri-maddi mədəni irsin qorunub saxlanılması məsələləri və digər problemlərin müzakirəsi üçün yaxşı fürsət olub.

Forum iştirakçıları nəşriyyat problemləri, ünsiyyət və dil siyasəti, mədəniyyətlərarası kommunikasiya sistemində musiqi jurnallarının rolu, musiqi jurnalistikasının problemləri, maarifləndirici proqramlar və digər məsələləri müzakirə edəcəklər.

Azərbaycan.-2024.- 16 oktyabr (№ 227).- S.11.